**Sara TİMUROVA**
ADMİU-nun Beynəlxalq əlaqələr və
əcnəbi tələbələrlə iş şöbəsinin müdiri,
Musiqi fakültəsinin Musiqi tarixi və
nəzəriyyəsi kafedrasının baş müəllimi
Ünvan: Yasamal r, İnşaatçılar pr. 39
E-mail: smuradova@gmail.com

# BƏSTƏKAR AYAZ QƏMBƏRLİ YARADICILIĞININ BƏDİİ İDENTİFİKASİYASI

***Xülasə:*** *Məqalədə gənc Azərbaycan bəstəkarı, beynəlxalq müsabiqələr laureatı Ayaz Qəmbərlinin yaradıcılığı haqqında geniş məlumat verilir, bəstəkarın əsərlərinin ümumi bədii qayəsi və üslub cizgiləri izah edilir. Burada A.Qəmbərlinin təhsili, müsabiqələrdə iştirakı və hazırkı pedaqoji fəaliyyəti haqqında da danışılır. Məqalənin əsas məqsədi xronoloji ardıcıllıqla bəstəkarın tələbəlik illərindən bu günədək bəstələdiyi bütün əsərlərin qısa təhlilini verməkdir. Burada əsərlərin yazılma tarixi, premyerası, eləcə də onların konsepsiyası, kompozisiya quruluşu və bəstələnmə texnikası haqqında məlumat təqdim edilir.*
***Açar sözlər***: *müasir musiqi, bəstəkar, Ayaz Qəmbərli, xronotop, statiklik, estetika*

Akademik musiqinin müasir mərhələsində Azərbaycan bəstəkarlıq məktəbinin xüsusi yeri var. Müasir musiqidə yaranan yeni üslub və təmayüllər, musiqi bəstələmə texnikaları milli təfəkkür tərzi və Abşeron məkanının özünəməxsus abhavası gənc, istedadlı və perspektivli bəstəkarlardan biri olan Ayaz Qəmbərlinin yaradıcılığında cəmləşərək fərdiləşir. Ayaz Qəmbərli dünya çapında bir neçə nüfuzlu bəstəkar müsabiqələrinin qalibi olmuş, müasir musiqi festivallarında iştirak edərək, Azərbaycan bəstəkarlıq məktəbini beynəlxalq müstəvidə layiqincə təmsil etmişdir. Bəstəkarın yaradıcılığı musiqi ictimaiyyəti və ölkə rəhbərliyi tərəfindən də qiymətləndirilmişdir. O, musiqi sahəsindəki uğurlarına və Azərbaycan Respublikasının xaricdə təmsil olunmasına görə "Gənclər mükafatı"na, səhnə fəaliyyəti ilə bağlı Prezident Mükafatına layiq görülmüşdür. Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür.

Ayaz Qəmbərli klassik musiqinin ən vacib qaydalarına riayət edərək, müasir təmayülləri əsərlərində tətbiq edir. XXI əsrdə gedən mürəkkəb qloballaşma prosesinə baxmayaraq, Azərbaycanda milli təfəkkür tərzi müasir dövrümüzdə də davam edir. Yaradıcılığının ilkin mərhələsindəki axtarışlarının nəticəsində o, "Zənnimcə mən Azərbaycan musiqisinin məhz indiki Abşeron dövrünü yazıram" [4] ifadəsini işlətmişdi. Yeni əsr zaman kimi, Azərbaycanın bir guşəsi olan Abşeron isə məkan kimi birləşərək hələlik Ayaz Qəmbərlinin yaradıcılığının xronoto-

puna çevrilir. Xronotop qədim yunan sözü olub “məkan-zaman koordinatlarının qanunauyğun əlaqəsi” [3, s. 347] deməkdir.

Yaradıcılığının ilk illərində Ayaz Qəmbərlini düşündürən “ideya varlığı və onun yazıya alınması prosesi arasındakı uçurumu nisbi də olsa tarazlamaq” üçün “əlin plastikasını şüuraltı mükəmməlliyə yaxınlaşdırmaq, tabe etmək” [1] olmuşdur. A.Qəmbərli epatajdan uzaq bəstəkardır. O, hesab edir ki, hər dəfə estetikanı dəyişməklə özü-özünü təkzib edir. Bəstəkar özünü heç bir forma və ya musiqi bəstələmə texnikası ilə məhdudlaşdırmaq istəmir, hər bir kompozisiyada öz qarşısına qoyduğu yeni məsələnin həllinə çalışır. Ayaz Qəmbərli heç vaxt bir istiqamətdə bir neçə əsər yazmayaraq, yeni tapıntılar axtarışına çıxır. Buna görə də onun musiqisində estetik haçalanma duyulur. Bu isə ümumilikdə XX-XXI əsrlərin musiqisindəki estetik paradiqmaların haçalanmasının əks-sədası kimi qəbul oluna bilər.

Ayaz Qəmbərlinin yaradıcılığını hər hansı bir çərçivəyə salmaq mümkün olmadığından onun musiqisinin təhlili mürəkkəbləşir. Lakin nəzəriyyəçi olaraq tədqiqatımızda müəyyən mənada müəllifin bu fikirlərini təkzib etməyə, bütün yaradıcılığı boyu izlənən eyni nüansları aşkarlamağa və beləliklə ümumi bir dəsti-xəttə malik olduğunu sübut etməyə çalışacağıq. Öz müsahibəsində dediyi fikirlərə müraciət etmək yerinə düşərdi: “Yaşadığım Bakıxanov qəsəbəsində arabsıra dolaşıram axşamlar. Küçəmizdəki taksi sürücüsünün hər dəfə maşınının üstündə şahmat oynaması ilə rastlaşıramsa, çayxanalarda hər dəfə gəlib gedən eyni simaları görürəmsə, bu asketik mühit mənim özümdə, dolayısıyla işlərimdə öz izini buraxır. Amma bilmirəm hansı formada. Ola bilsin işlərimdə olan təmkində, statiklikdə gizlənir bu” [4].

A.Qəmbərli 1984-cü ildə Bakıda anadan olub. İlk musiqi təhsilini Bakı şəhərinin Bakıxanov qəsəbəsindəki 4 saylı musiqi məktəbində almışdır. O, musiqiçi olmaq arzusunun ardınca qəti addımlar atmağa başlayır. Görünür istedad intuitiv olaraq, kimsəyə baxmadan, qarşısında nümunə görmədən bəstəkarlıq sənətinə yiyələnmək haqda xəyalları diktə edirdi…Qəmbərli 1999-2003-cü illərdə Asəf Zeynallı adına Musiqi Texnikumunda (hazırki Azərbaycan Milli Musiqi Konservatoriyası nəzdində Musiqi Kolleci) pianoçu kimi (Sevda Babazadənin sinfi) təhsil almışdır. Kollecin I kursunda ikən (2000-ci il) görkəmli bəstəkar, professor Arif Məlikovun (1933-2019) sinfində bəstəkarlıq dərsləri almağa başlamış və sonradan elə onun sinfində də Bakı Musiqi Akademiyasında (BMA) təhsilini davam etdirərək, bakalavr dərəcəsinə yiyələnmişdir (2003-2007-ci illər). Daha sonra o, *Jazeps Vitols* Latviya Musiqi Akademiyasında Rolands Kronlaks (1973) və Janis Petraskeviçin (***Jānis Petraškevičs***, 1978) sinfində təhsilini davam etdirərək, magistratura pilləsini bitirmişdir.

Kollecdəki təhsil illərində Ayaz yaxşı mənada müxtəlif bəstəkarların güclü təsiri altında kiçik həcmli əsərlər - prelüdlər, violin və piano üçün 2 süita, 1 sonatina, 2 sonata bəstələmişdi. O zaman Bela Bartok (1881-1945), İqor Stravinski

(1882-1971) kimi bəstəkarları çox dinləyir, A.Məlikovun məsləhəti ilə impressionist bəstəkarların yaradıcılığı ilə yaxından tanış olur, İ.S.Baxın (1685-1750) zaman proporsiyalarını öyrənirdi. Bir çox konsertlərdə pianoçu və bəstəkar pianoçu kimi çıxış etmişdir.

A.Qəmbərli artıq 10 ilə yaxındır ki, pedaqoji fəaliyyətlə məşğuldur. Onun pedaqoji fəaliyyəti yeni nəsil bəstəkarlarının yetişdirilməsi ilə bağlıdır. Müsa-hibələrinin birində öz biliklərini şagirdləri ilə paylaşmağın onun üçün nə qədər vacib olduğunu vurğulamaq məqsədilə "Əgər enerji sərf olunmursa, o səni daxildən məhv edir" [4] ifadəsini işlətmişdi. 2011-ci ildən bu günədək Bülbül adına Orta İxtisas Musiqi məktəbində bəstəkarlıq, alətşünaslıq və orkestrləşdirmə fənləri üzrə dərs deyir, habelə 2018-2019-cu illərdə İncəsənət Gimnaziyasında Musiqi nəzəriyyəsi fənnini tədris edir. O, 2013-cü ildə nəşr edilmiş dahi bəstəkar Qara Qarayevin 95 illik yubileyinə həsr olunmuş "Müasir musiqi haqqında esselər" kitabının redaktoru olmuşdur.

Tələbəlik illərində yazdığı Altı eskiz (piano, 2003) bəstəkarın yaradıcılığının başlanğıcı hesab oluna bilər. 2004-2005-ci illərdə, BMA-nın II kursunda təhsil alarkən Üzeyir Hacıbəylinin 120 illik yubileyinə həsr olunmuş simfonik orkestr üçün "Bəy" süitasını bəstələyir. Süita estetik cəhətdən bir-birinə bağlı olan 3 pyesdən ibarətdir. Bu əsər bir qədər sonra, 2011-ci il 27 sentyabr tarixində Üzeyir Hacıbəyli adına III Beynəlxalq Musiqi Festivalı çərçivəsində Azərbaycan Dövlət Filarmoniyasında bədii rəhbər və baş dirijor Maksim Yemelyanıçevin rəhbərlik etdiyi "Veritas" (Rusiya) kamera orkestrinin ifasında səslənmişdir. Bəstəkar qısa zamanda əsərin tərkibini dəyişərək, kamera orkestri üçün işləmiş və "Divertisment" [18] adlandırmışdır. "Divertisment" növbəti dəfə 2013-cü ildə V Qəbələ Beynəlxalq musiqi festivalında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti və Fəxrəddin Kərimovun dirijorluğu ilə ifa edilmişdir.

Ayaz Qəmbərlinin BMA-da təhsil aldığı dövrdə, daha dəqiq desək, 2006-cı ildə yazdığı simli kvartetdə onun bəstəkarlıq qabiliyyəti kamilləşir, bu sənətə yanaşması daha da ciddiləşir. Bu əsəri yazdığı zaman o, bethovensayağı hər xanəni dəfələrlə yazıb sonra cırıb atırdı. Özünü artıq əsil bəstəkar kimi dərk etməyə başlamış Ayaz kvartetdə aleatorika (lat. - alea – oyun zəri; təsadüfilik. XX-XXI əsr klassik musiqisində tətbiq edilən bu bəstələmə texnikası kompozisiyanın yazılması və ya ifası zamanı musiqi elementlərinin qeyri-müəyyən və təsadüfi ardıcıllığını əsas tutur) texnikasına müraciət etmişdir.

Tələbəlik illərindəki yaradıcı atmosfer, mütaliələr, XX əsr musiqisini dinləyərək dərindən öyrənməsi Ayaz Qəmbərlini 2007-ci ildə yazdığı diplom işi olan Piano və simfonik orkestr üçün konsert əsərinə, bir növ yaradıcılığındakı dönüş nöqtəsinə aparırdı. Müasir musiqi texnikalarını tətbiq etməyə başlayan Ayaz bu əsərdə yaradıcılığının I mərhələsini bitirəcək, sentimental, romantik hissləri elə burada da qoyacaq. O, radikal şəkildə dəyişmək istəyirdi. Ümumiyyətlə dəyişmək arzusu onu ömür boyu izləyəcək.

Qeyd etməliyik ki, uğurlu səhnə həyatı olan A.Qəmbərlinin diplom işi kimi təqdim etdiyi Piano konserti ilk dəfə 2 fevral 2011-ci il tarixində Gənclər günü ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə “Gəncliyin səsi” layihəsi çərçivəsində Azərbaycan Dövlət Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə və Əyyub Quliyevin dirijorluğu ilə beynəlxalq müsabiqələr laureatı, istedadlı pianoçu Zakir Əsədovun ifasında səslənmişdir. Konsert növbəti dəfə 2011-ci ilin 24 iyul tarixində III Qəbələ beynəlxalq musiqi festivalında dirijor Yalçın Adıgözəlovun (1959) rəhbərliyi və pianoçu Yeganə Axundovanın (1960) solistliyi ilə Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında təqdim edilmişdir. 2018-ci il iyulun 31-də Qəbələ X Beynəlxalq Musiqi Festivalında pianoçu Yeganə Axundova və dirijor Fuad İbrahimovun (1982) ifaçılığında Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə bəstəkarın Piano konserti yenidən səslənmişdir.

Konsert ənənəvi 3 hissədən ibarətdir. Birinci hissədə diqqəti cəlb edən piano partiyasının parlaqlığı və virtuozluğudur. İkinci hissənin əvvəlində orkestr partiyası ön plana çıxır, lakin getdikcə piano partiyası birincilik əldə edərək orkestri ardınca kulminasiyaya aparır. İkinci hissənin xarakteri bir qədər kameralıdır, orkestr alətlərinin solo mövzuları eşidilir. İlkin əhval ilə dairəyə alınan orta hissə final hissəsi üçün zəmin hazırlayır. Üçüncü hissədə parlaq milli ritm bəzən konsertin ən əhəmiyyətli elementlərindən biri olan axsaq ritmə keçir. Ziddiyyətlərlə dolu olan finalda pianonun virtuoz pasajları simlilərin fon pasajları ilə qarşılaşır. Son xanələrdə biz bəstəkarın maraqlı tapıntısının şahidi oluruq: hər üç hissənin əsas elementləri səslənir və sanki bir göz qırpımında konsertin bütün musiqi məzmunu qarşımızdan keçir.

2008-ci il oktyabrın 15-də bəstəkar Özbəkistanın Daşkənd şəhərində keçirilən IV “Omnibus-laboratorium” layihəsində meksikalı bəstəkar Viktor Rasqado (*Victor Rasgado,* 1959), alman bəstəkarı Ştеffen Şleyermaxer (Steffen Schleiermacher, 1960) ustad dərslərində “Köhnə qrammofondan vals” (fleyta, klarnet in B, violin, violonçel və piano) əsəri ilə [15] iştirak etmişdir. Mark Vaylın İlhom Teatrında səslənmiş bu əsərə özbək bəstəkarı Artyom Kim (1976) dirijorluq etmişdir. Həmin əsər 2009-cu ilin 5 may tarixində Ukraynanın Kiyev şəhərində keçirilən IX beynəlxalq “*Музыка Молодых*” (“Gənclərin Musiqisi”) forumunda Viktoria Ratsyukun (1970) dirijorluğu ilə “Ricochet” ansamblı tərəfindən P.İ.Çaykovski adına Kiyev Dövlət Konservatoriyasında ifa olunmuşdur. Düz bir ildən sonra həmin zalda və həmin ifaçıların iştirakı ilə Ukraynanın Kiyev şəhərində keçirilən “*Kyiv Music Fest*” beynəlxalq musiqi festivalında isə A.Qəmbərlinin *LudwigStuk* (fleyta, klarnet in B, Alt saksofon, violin, viola, violonçel və piano) əsəri ifa edilib [19].

2009-cu ildə A.Qəmbərli violonçel və piano üçün “Dörd şərti obraz” adlı növbəti əsərini yazır. Qeyd edək ki, bu əsər və yuxarıda söz açdığımız iki əsər intuitiv musiqi istiqamətinə aid edilə bilər. Bu isə akademiyanı yeni bitirmiş, yaradıcılığının ilkin, axtarış mərhələsində olan bəstəkar üçün olduqca səciyyəvidir.

2010-cu ildə Qəmbərlinin yaradıcılığı daha bir əhəmiyyətli əsərlə - "Nöqtələrə həll olunmuş kompozisiya" (fl., cl.in B, piano, vln., cello) ilə zənginləşir [14]. Əsər 2012-ci il fevralın 10-da Ukraynanın Kiyev şəhərində keçirilən "*Kyiv Music Fest*" festivalında *Ensemble "Ricochet"* tərəfindən P.İ.Çaykoski adına Kiyev Dövlət Konservatoriyasında dirijor Viktoria Ratsyukun rəhbərliyi ilə ifa edilmişdir. Bu əsər puantilizm (*fr. – point* – nöqtə. XX əsrin II yarısına aid nöqtələrə əsaslanan kompozisiya texnikasıdır) texnikası ilə yazılmışdır. Əsərin adında da gizlənmiş ideya musiqi ibarələrinin sonda nöqtələrə həll olunması ilə özünü göstərir.

A.Qəmbərli 9 oktyabr 2011-ci il tarixində dünyada ən mötəbər bəstəkar müsabiqələrindən biri hesab edilən, ABŞ-ın Boston şəhərində keçirilən 29-cu "ALEA III" müasir musiqi müsabiqəsində 2010-cu ildə xüsusi olaraq bu müsabiqə üçün yazılmış 9 ifaçıdan ibarət ansambl üçün *"Méthode de sens*" (Hisslər üzərində özünütəlim metodu) adlı kompozisiyası [13] ilə I yerə layiq görülmüşdür. Bu əsər müəllimi, pianoçu, Azərbaycan fortepiano məktəbinə əvəzsiz xidmətlər etmiş Yuri Mixayloviç Sabayevin əziz xatirəsinə ithaf olunmuşdur. Qeyd edək ki, bu müsabiqə 1980-ci ildən etibarən hər il Boston Universiteti tərəfindən keçirilir. Həmin il müsabiqəyə 208 partitura təqdim olunmuş, bunlardan yalnız Meksika, İspaniya, Yunanıstan, Azərbaycan, ABŞ və Polşa bəstəkarlarının əsərləri finala çıxmışdır.

Boston Universitetinin tərkibindəki *College of Fine Art*'ın böyük zalında müsabiqə finalistlərinin Qala konsertində A.Qəmbərli də iştirak etmişdir. Əsərlər tanınmış bəstəkar və dirijor Teodor Antonionun (*Theodore Antoniou,* 1935-2018) rəhbərliyi ilə *Contemporary Music Ensemble* tərəfindən ifa edilmişdir. Konsert bitdikdə Boston Universiteti, *Berklee College of Music* və Brandeis Universitetinin professorlarından ibarət münsiflər heyəti qısa müzakirəyə ayrıldıqdan sonra müsabiqənin birincisi qismində A.Qəmbərlinin adını elan etmişdir.

*"Méthode de sens*" əsərindəki coşmaq istəyən, irəliyə hücum çəkən ibarələr hər dəfə fərqli alətlər tərəfindən yaxalanır və dayandırılır. Rəngarəng orkestrləşmə, ziddiyyətlərin çoxluğu, ibarələrin qeyri-bərabər uzunluğu, axsaq ritmika məşhur polyak bəstəkarı Lütoslavskinin (*Witold Lutoslawski,* 1913-1994) musi-qisi ilə paralel aparmağa əsas verir. Eyni zamanda əsərdəki ideyanı zərif və "alicənab" metodlarla izah etmək bacarığı məhz A.Qəmbərli üslubunu heç kimlə səhv salmağa qoymur.

2012-ci il 9 oktyabr tarixində Almaniyanın Drezden şəhərində keçirilən "*Quinar" Neue Musik Aus Aserbaidschan/ TonLagen*" beynəlxalq müasir musiqi festivalında bəstəkarın "Qovuşma I" (violin, viola və violonçel) əsəri "*Courage*" ansamblının ifasında səslənmişdir.

2013-cü ildə Qəmbərli müxtəlif bəstəkarların əsərlərinin aranjiman işinə başlamışdır. O, Üzeyir Hacıbəylinin Milli Marş əsərini simli orkestr üçün işləmişdir. Sonralar da məşhur əsərlərin aranjimanı işini davam etdirən A.Qəmbərli

2016-cı ildə rus bəstəkarı və pianoçusu Aleksandr Skryabinin (1871-1915) piano üçün – Üç pyes, op.52 silsiləsindən No. 1, “Poema” pyesini simfonik orkestr üçün işləmişdir. Bu işləmələrdə bəstəkarın professionallığı aydın şəkildə nəzərə çarpır. O, aranjiman işinə öz orijinal kompozisiyaları qədər məsuliyyətlə və yaradıcı şəkildə yanaşır.

2013-2014-cü illərdə piano triosu (violin, violonçel, piano) üçün yazılmış “Elementlərin müqaviməti” [16] əsəri A.Qəmbərlinin yaradıcılığında xüsusi yer tutur. 2015-ci il mayın 1-də Avstriyanın Qraz şəhərində Musiqi və İfaçılıq sənəti Universiteti tərəfindən təşkil olunmuş bəstəkarların 9-cu “*Franz Schubert and Modern Music*” Beynəlxalq Müsabiqəsində məhz “Elementlərin müqaviməti” əsəri ilə qalib olmuşdur. Müsabiqədə münsiflər heyəti: alman bəstəkarı, professor Robert Höldrixin (*Robert Höldrich,* 1962) başçılığı altında Tayvan pianoçusu Çia Çou (1960), Avstriya bəstəkarı və dirijoru Beat Furrer (*Beat Furrer,* 1954), Avstriya bəstəkarı və dirijoru Gerd Kür (*Gerd Kühr,*1952), alman bəstəkarı Andrea Lindenbaum (*Andreas Lindenbaum,* 1963) və alman bəstəkarı İzabel Mundri (*Isabel Mundry,*1963) 51 ölkədən 185 əsərə baxış keçirərək, bu əsəri I yerə layiq görmüşdür. Nüfuzlu mükafatın təqdimetmə mərasimi 2015-ci ilin fevralında Graz Konservatoriyasında keçirilmişdir. “Bu dəfəki müsabiqədə zövqü diktə edənlər isə Beat Furrer, Wolfgang Rihm kimi bəstəkarlar idi. Əslində işin ən maraqlı tərəfi də elə bu oldu mənim üçün. Çünki Furrer’in musiqisi ilə çoxdandır ki, tanışam. Onun, Gerard Grisey’in və Morton Feldman’ın əsərlərinin köməyi ilə XX əsrin ikinci yarısının musiqi mədəniyyəti açıldı mənim üçün – yəni onlar mənə ilk növbədə müasir musiqini dinləmək mədəniyyətini öyrətdilər. Hər şey bir yana... ən sevdiyim romantikin adına olan müsabiqənin qalibi olmaq da xoş oldu, təbii ki...” [4].

“Elementlərin müqaviməti” kompozisiyasında fizika elmindəki müqavimət qüvvəsinin təsviri musiqi elementlərinin bir-birini sıxaraq aradan götürməsi vasitəsilə verilir. Bəstəkar bu kompozisiyada fransız və Amerika rəssamı, incəsənət nəzəriyyəçisi Marsel Düşanın (*Marcel Duchamp,* 1887-1968) 1913-cü ildə yazılmış “Musiqili heykəl” əsəri arasında maraqlı paralel aparır. Dadaizm (*fr. – dada –* mənasız ahəngdarlıq. XX əsrdə ədəbiyyat, rəssamlıq, teatr və kino sahəsinə aid avanqard cərəyandır) cərəyanına aid bir çox rəssamlar kimi Düşan da musiqidə eksperimentlər aparmaq məqsədilə bu konseptual kompozisiyanı yazmışdır. Həmin əsərdə ifaçının hərəkəti vasitəsilə akustik olaraq ayrı-ayrı tərəflərdən gələn səslər toplanır, bir araya sıxılıb musiqi “heykəli” yaradır. Qəmbərlinin əsəri $ABA^1$ formasında yazılmışdır. Lakin buradakı $A^1$ klassik anlamda repriz deyil. Birinci (A) və üçüncü ($A^1$) hissələr orta (B) hissəyə doğru gedərək onu sanki sıxır. Bunu B-nin sürət və dinamika vasitəsilə “sıxılmasında” müşahidə etmək olur.

**Nümunə 1**




Bir qədər sonra, daha dəqiq desək, 25 iyun 2016-cı ildə A.Qəmbərli ABŞ-ın Nyu-York şəhərində keçirilən və dünyanın ən önəmli müasir musiqi tədbirlərindən sayılan MISE-EN MUSIC FESTIVAL 2016 - *Call for Scores* festivalında “Mise-En” ansamblının ifasında məhz bu əsərlə iştirakçı olmuşdur.

2014-cü ildə A.Qəmbərlinin istedadının və maraqlı ideyalarının bilavasitə göstəricisi olan “Suprematik fiqurlar” (piano triosu) [17] kompozisiyası yazılır. Əsər “Elole” piano triosuna həsr olunmuşdur. “Suprematik fiqurlar” XX əsrin əvvəlində rus avanqard rəssamı, pedaqoq, nəzəriyyəçi, filosof Kazimir Maleviç (1879-1935) tərəfindən yaradılmış suprematizm adlı istiqamətdən ilhamlanan musiqili illüstrasiyadır. Suprematizm məhdud rəng çərçivəsində təsvir edilən dördbucaqlı, dairə, xətt və düzbucaqlı kimi başlıca həndəsi formalara yönəlib. Suprematizmdən gələn kubistik elementlər bu kompozisiyanın ideya əsasını təşkil edir. Belə ki, hər bir musiqi bloku həndəsi fiqurları təsvir edir. Vizual olaraq partiturada bunları görmək mümkün olmasa da, kompozisiyanın səslənməsində müəyyən fəndlər vasitəsilə dairə, dördbucaqlı və s. formalar əks olunmuşdur. Lakin bu təsvirlər texniki cəhətdən kompozisiyada həll edilməmiş, daha çox poe-

tik anlamda illüstrasiyalar verilmişdir. Məsələn, əsərin əvvəlində səslənən və sonradan bütün əsər boyu rast gəlinən akkordlar vertikal xətləri, simlilərdə qlissandoların enib qalxması üçbucağı, 16-lıq notların bir neçə xanə boyu ardıcıl səslənməsi dairəni, 15-ci xanədə violin alətinin 4 dəfə eyni akkordu ifa etməsi dördbucaqlını simvolizə edir. A.Qəmbərlinin yaradıcılığında əsas məsələ ideyanın qoyuluşu deyil, onun musiqi ifadə vasitələri ilə necə həll olunmasıdır. Musiqi kompozisiyası özü özlüyündə maraqlı olmalıdır ki, əsərin bədii qayəsi sadəcə onun təsir qüvvəsini gücləndirmək funksiyası daşısın. “Suprematik fiqurlar” əsəri də bu baxımdan əhəmiyyətlidir ki, adını və ideyasını unutduqda belə, o kompozisiya olaraq maraq doğurur.

**Nümunə 2**




A.Qəmbərli öz üzərində çox çalışan bəstəkardır. Çoxsaylı mütaliə və musiqi dinləməsi nəticəsində onun dünyagörüşünün genişlənməsi, səngiməyən axtarışlarının çoxşaxəli olması nəticədə Qəmbərlinin yaradıcılığındakı növbəti çevriliş nöqtəsinə gətirib çıxarmışdır. Artıq 2014-cü ildən sonra Qəmbərli əks təsirləri, yəni dinlədiyi cərəyanları, üslubları və s. özününkiləşdirməyi öyrənir. Ayaz diplom işi olan piano konsertindən, yəni 2007-ci ildən sonra uzun müddət bu alət üçün əsər yazmır. Çünki BMA-dan öncə aldığı pianoçu təhsilinin onu əzələ yaddaşının nə zamansa ifa etdiyi istiqamətlərə, üslublara yönəldəcəyindən qorxurdu. Amma simvolikdir ki, artıq ikinci dəfə məhz piano üçün yazdığı əsərlər onun yaradıcılığında dönüş nöqtəsinə çevrilir. İlk dəfə həmin dönüş piano konsertinin,

bu dəfə isə eyni ildə (2015) solo piano üçün yazılmış "Şaquli sapınma" [9], "Rezonans" [8] və "Sentyabr buludları" [20] əsərlərinin payına düşür. Görünür dərin axtarışlar, yeni texnikalara yiyələnmə bəstəkarı şüuraltı olaraq ən mürəkkəb yola əl atmağa vadar edir və yaddaş assosiasiyalarından müdafiə edir.

A.Qəmbərlinin yaradıcılığındakı yeni dalğanın ilk nümunəsi hazırlanmış piano üçün "Şaquli sapınma" (2015) əsəri oldu. Bu əsər pianoçu Zakir Əsədova (1986) həsr olunmuşdur və ilk dəfə məhz elə onun ifasında Bəstəkarlar İttifaqının plenumunda səslənmişdir. Bəstəkar bir çox əsərlərində olduğu kimi, "Şaquli sapınma"da da çox maraqlı ideya təqdim edir. O,Niderland rəssam Pit Mondrianın (*Piet Mondrian,* 1872-1944) rəsmlərindən bəhrələnərək, şaquli və üfüqi xətləri görüşdürüb dördbucaqlılar əmələ gətirir. Bunun musiqi ifadə vasitələri ilə reallaşdırılması üçün Qəmbərli kompozisiyanı kiçik fraza ilə başlayıb onu şaquli xətlərin arasında ilişdirir. Həmin fraza özünü nə kompozisiya, nə də dinamik olaraq inkişaf etdirə bilmir. Mondrianın rəsmlərindəki dördbucaqlıların içindəki rənglər kimi, bu musiqi frazası da şaquli xətlərin içində ilişib qalır.

**Nümunə 3**




Yeni dalğanın növbəti maraqlı əsəri isə həmin ildə solo piano üçün yazılmış "Rezonans" kompozisiyasıdır. Əsərin ilk ifası Bəstəkarlar İttifaqının plenumunda pianoçu Gülnar Qəmbərlinin (1987) ifasında baş tutmuşdur. "Şaquli sapınmada"kı kolorit bu əsərdə daha da inkişaf edir. Lakin bəstəkarın öz fikrincə bu

heç də o demək deyil ki, “Şaquli sapınma” sonradan eyni koloritdə yazılmış əsərlərin istinad nöqtəsi olacaqdı. Sadəcə bu əsərin öhdəsinə ilk rolunu oynamaq düşmüşdür. Məhz dərin axtarışlar ard-arda tapıntıların musiqidə həllinə gətirib çıxarmışdır. Kompozisiyanı dinlədikdə bu musiqi haqda ağıla bir neçə təsvir ifadələri gəlir - meditativ, sadə, sirli, özünə qapanmış, təvazökar, vebernsayağı...

Məqalənin əvvəlində Ayazın onu əhatə edən asketik mühit haqda fikirlərini sitat gətirmişdik. Sanki bu statikliyin təsirinin partlayışı “Rezonans” əsərində baş verir. Ümumiyyətlə A.Qəmbərli əsərlərində bədii qayə ilə struktur arasındakı əlaqə məsələsini çox böyük incəliklə həll edir. Ən maraqlı tərəfi isə budur ki, nə bəstəkarın əsərlərində sezilən poeziya, mistika strukturun içindəki hesablanmış dəqiq texnikalara, kompozision metodlara mane olur, nə də əksinə, təfsilatlı hesablamalar bədii obraza xələl gətirir. Elə birinci məsələyə görə də əsərin adını bilmədikdə, ideyasını, gizlənən bənzətmələri, təsirləri duymadıqda belə Qəmbərlinin əsərləri müasir musiqi kompozisiya nümunələri kimi dəyərini itirmir.

2015-ci ildə solo piano üçün yeni nəfəslə yazılmış əsərlərdən sonuncusu “Sentyabr buludları” olmuşdur. Əsər bəstəkarın qardaşı, rəssam Anar Qəmbərlinin (1981) eyniadlı rəsminə musiqili illüstrasiya kimi yazılmışdır. Rəsmdə buludlar nə qədər aydın təsvir edilsə də, insan beyni reallıqda onlara yaxınlaşdıqca sanki dağılaraq itməsini unuda bilmir. Ayazın kompozisiyasında da bütün əsər boyu səslənən müəyyən intervallarla yuxarı qalxan fraza vasitəsilə həmin buludların dəqiq konturları təsvir edilir. Eyni zamanda “boğulmuş” səslərin əks-səda kimi bir neçə dəfə təkrarlanması buludların asta-asta əriyib yoxa çıxmasını xatırladır.

A.Qəmbərli əsərlərindəki zaman nisbətini qurmaq üçün böyük enerji sərf edir. Bəstəkarla söhbət zamanı aydın olur ki, əsərlərinin səslənmə müddətinin təyini adətən onun kompozisiya prosesinin sonuncu mərhələsi olur. O, riyazi hesablamalar əsasında deyil, intuitiv olaraq hansı elementlərin kəsilməsinə və ya artırılmasına, hansı məqamda əsəri bitirəcəyinə və s. qərar verir. Zamanı duymaq bacarığı isə onun Avstriya bəstəkarı Frans Şubert (*Franz Schubert,* 1797-1828), və Amerika bəstəkarı Morton Feldman (*Morton Feldman,* 1926-1987) kimi bəstəkarların əsərlərini dərindən öyrənməsindən irəli gəlir.

2015-ci ilin 19 sentyabr tarixində VII Üzeyir Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalı çərçivəsində dirijor Yalçın Adıgözəlovun rəhbərliyi ilə Liepaya Simfonik Orkestrinin (Liepaya, Latviya) ifasında C.Debussy/A.Gambarli - Prelude No.4 *"...Les sons et les parfums tournent dans l'air du soir"* (“Səslər və ətirlər gecə havasında uçuşur”: S.T.) adlı əsəri Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində səsləndirilmişdir. Bəstəkarın bu əsərin üzərində 2 ay ərzində dayanmadan işləməsi onu sonradan “Retrospektiv” əsərinin yazılmasına gətirib çıxaracaq.

2016-cı ildə bəstəkarın simfonik orkestr üçün “Exolalia” [21] əsəri yazılır. Bu əsər “Şaquli sapınma”, “Rezonans” və “Sentyabr buludları” əsərlərinin məntiqi davamı kimi qəbul oluna bilər. Əsər 22 fevral 2019-cu il tarixində dirijor Fuad İbrahimovun rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik

Orkestrinin ifasında Azərbaycan Dövlət Filarmoniyasında səslənmişdir. Exolalia (qədim yunan sözü olaraq, exo (təkrar) və lalia (nitq) hissələrindən ibarətdir) psixi və ya nevroloji bir xəstəlik adıdır. Bu psixi pozğunluqdan əziyyət çəkən insanlar eşitdikləri söz və ya ifadələri avtomatik təkrarlayırlar. A.Qəmbərlinin "Exolalia" əsəri ritmik quruluş, fraza və harmonik dil baxımından bir-birinə yaxın olan kiçik bloklardan ibarətdir. Həmin bloklar əsər boyu təkrarlanaraq böyük frazalar əmələ gətirir. Bu frazalar isə öz növbəsində daha da iri cümlələrin yaranmasına səbəb olur və nəticədə hər element bir-birini təkrarlayaraq (təqlid edərək) əsər boyu böyük bir əks-səda effekti yaradır. Ümumiyyətlə, bəstəkarın əsərlərində, xüsusilə də yuxarıda adlarını çəkdiyimiz üç solo piano əsərindən gələn estetikaya görə təkrarlar "Exolalia" əsərində tamam fərqli anlamda verilərək xəstəlik ilə müqayisə olunur. Bu təkrarların müxtəlif bədii ideyaların təcəssümündə əridilməsi isə Qəmbərlinin yaradıcı təxəyyülü, fantaziyasının genişliyindən xəbər verir.

"Exolalia" əsəri ilə paralel olaraq bəstəkar yenə də simfonik orkestr üçün "Retrospektiv" əsərini yazır. Qəmbərli dirijor Yalçın Adıgözəlova həsr olunmuş bu əsər üzərində 2015-2018-ci illərdə işləmişdir. Əsər hələlik ifa olunmamışdır. Bəstəkarla söhbət zamanı o, söyləmişdir ki, "Retrospektiv"i yazmaq istəyi hələ illər öncə fransız bəstəkar Klod Debüssinin (*Claude Debussy,* 1862-1918) "*Le Martyre de Saint Sébastien*" simfonik fraqmentlərini ilk dəfə dinləyərkən yaranmışdı. Sonradan isə Debüssinin Prelude No.4 "*...Les sons et les parfums tournent dans l'air du soir*" adlı əsərini simfonik orkestr üçün işlədiyi müddətdə estetikanı daha da dərindən anlayaraq, bu ideyanı necə reallaşdıracağı fikrini özü üçün dəqiqləşdirmişdi. O, qərara gəlmişdi ki, tarixə stilistik ekskurs etməklə keçmişin kiçik bir əks sədasını yaradan musiqi yazsın. Əsəri dinlədikdə A.Qəmbərlinin nəinki tarixə, həm də öz yaradıcılığındakı keçmiş üsluba səyahətinin şahidi oluruq. "Retrospektiv"i daha da maraqlı edən isə bəstəkarın bu prosesə təcrübədən irəli gələn peşəkarlıqla yanaşmasıdır. Digər tərəfdən bu əsər bizi təxminən bir əsr əvvələ, impressionizm dövrünə aparıb sanki həmin illərdə yaşayan A.Qəmbərlinin obrazını canlandırır. "Retrospektiv" impressionizm cərəyanına əsaslanan neoklassik kompozisiyadır. Ayazın yaradıcılığının ilk mərhələsi də elə impressionizm cərəyanı ilə səsləşdiyindən keçmişə ekskursu da məhz bu istiqamətdə seçməsi heç də təsadüfi deyil. Daha dəqiq desək, impressionizm cərəyanını ortaq nöqtə seçərək bəstəkar həm öz, həm də musiqi tarixinin keçmişinə müraciət etmişdir.

2018-ci ildə Ayaz Qəmbərli solo piano üçün "İlğım" adlı əsərini yazır. 2019-cu ildə bəstəkar həmin əsər ilə Avstriyanın Vyana şəhərində keçirilən bəstəkarların *Mauricio Kagel* adına beynəlxalq müsabiqəsində növbəti dəfə Azərbaycan klassik musiqisini I yerə çıxara bilmişdir. Final mərhələsi 8 fevral 2019-cu il tarixində Vyananın Musiqi və İfaçılıq Sənəti Universitetində keçirilmişdir. Müsabiqənin şərtlərinə görə qalib əsər pul mükafatı ilə yanaşı, həm də Avstriyanın "*Universal edition*" adlı klassik musiqi nəşriyyatında çap edilməli idi. Beləliklə

də Qəmbərlinin "İlğım" əsəri bu nüfuzlu nəşriyyat tərəfindən nəşr olunmuşdur. Həmin nəşrdə bəstəkarın öz əsəri haqqında yazdığı sinopsis verilmişdir: "İlğım"ın konsepsiyasını Abşeron yarımadasının (Azərbaycan) dənizkənarı Bilgəh kəndində yaşayarkən düşünmüşdüm. Bu məkanın isti yay havasını dərərkən kəndə gedən yolda parlaq rənglərdə əks olunan mənzərəsi, bulanıq bir üfüqdə peyda olan, müşahidəçinin gözünə yaxınlaşarkən yox olan, yenidən kaleydoskopik bir şəkildə peyda olan ilğım əsərin quruluşunda və bütövlükdə atmosferinin yaradılmasında fikirləri işə salan əsas ilhamverici motivlərdən idi. "İlğım" 2014-2018-ci il aralığında bəstələnmiş üç müstəqil parçadan ("Sentyabr buludları", "Rezonans" və "İlğım") ibarət "Obrazlar" adlı solo piano silsiləsinin sonuncu əsəridir. Hər üç əsər həm ayrı, həm də silsilə şəklində ardıcıl ifa edilə bilər. İfaçı əsərlərin ardıcıllığını istədiyi kimi dəyişə bilər" [22].

2020-ci ildə *Universität für Musik und darstellende Kunst Wien "Mdw hören"* proqramı çərçivəsində buraxdırdığı CD-yə Y.Haydn (J.Haydn), L.Bethoven (L.Beethoven), M.Ravel, R.Şuman (R.Schumann), A.Vebern (A.Webern) kimi dünyaca məşhur bəstəkarlarla yanaşı Ayaz Qəmbərlinin "İlğım" əsərini də daxil etmişdir. CD Universitetin ən uğurlu səs yazılarından ibarət "audio vizit kartı" kimi buraxılmışdır və rektorun qonaqlarına hədiyyə olaraq təqdim edilir.



2018-ci ildə bəstəkar qədim musiqi alətləri ansamblı üçün “Naxışlar” əsərini yazır. Əsər sentyabrın 28-də Nəsimi Festivalı çərçivəsində Xalça Muzeyində dirijor Orxan Həşimovun (1995) rəhbərliyi ilə “Əsrlərin sədası” adlı Qədim Musiqi alətləri ansamblı tərəfindən ifa edilmişdir. Bu kompozisiya Əbdülqadir Marağayinin (1360-1435) “Rəng” əsərinin motivləri əsasında bəstələnmişdir. Bəstəkar “Rəng” əsərini tam olaraq özünün təxəyyülünə əsaslanaraq, istədiyi kimi istifadə etmişdir. Əsər A.Qəmbərlinin yaradıcılığını fərqli rakursdan təqdim edir.

2019-cu ildə Nəsimi Festivalının sifarişi ilə bəstəkar simfonik orkestr üçün “Mozaika” adlı əsərini yazmışdır. Əsər həmin il oktyabrın 1-də Nəsimi Festivalı çərçivəsində dirijor Mustafa Mehmandarovun (1992) rəhbərliyi və Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə Heydər Əliyev Mərkəzində keçirilən bağlanış mərasimində səslənmişdir. Əsərin annotasiyasında bunlar yazılıb: “Əsərdəki konsept mozaik tablolara xas texnikanın vizual təqlidi üzərində qurulub və kökü Mesopotamiyanın Şumer şəhərlərinə qədər gedib çıxan, ilk nümunələri eramızdan əvvəl IV minilliyin ikinci yarısına təsadüf edən *Mozaika* adlı qədim dekorativ tətbiqi sənət növünün musiqili əks-sədasıdır” [2].

2019-cu ildə bəstəkar solo piano üçün “Hüzn” [12] adlı əsərini yazmışdır. Bu əsər A.Qəmbərlinin bəstəkarlıq qələminin fərdiliyinin göstəricisi kimi qiymətlidir. Bəstəkar “Hüzn” əsərini Zakir Əsədovun ifasında səsyazma studiyasında yazdırmışdır.

Bəstəkar 2019-cu ildə Latviya Musiqi Akademiyasındakı imtahana violin, bas klarnet və piano üçün “Miniatür” əsərini yazmışdır. Əsər xanə sayları bərabər olan üç hissədən ibarətdir. Forma olaraq A $A^1$ $A^2$ kimi göstərilə bilər. Birinci hissədə bəstəkar bütöv hissəni bir fraza kimi düşünüb. İkinci hissədə həmin fraza zənginləşərək, sanki yeni informasiya çatdırmaq funksiyasını əldə edir. Sonuncu hissədə isə bu inkişaf xətti məntiqi kulminasiyasına çatır. Frazaya yeni rənglər əlavə olunur və o, harmonik, intonasiya və tembr baxımından bir qədər də zənginləşir. Qəmbərli bu əsərində miniatürün yaradılma prosesini təsvir etməyə çalışmışdır – qələmlə cızılmış kontur xətləri, onların içinə rənglərin doldurulması, ikinci qat kontur xətlərinin cızılması və rənglənməsi və s. Məhz miniatür sənətinin qaydalarını musiqidə tətbiq edən Ayaz Qəmbərli bu əsərə klassik musiqi anlamında variasiya kimi deyil, fərqli yanaşır.

Son bir il bəstəkar üçün olduqca səmərəli keçmişdir. O, 2020-ci ildə solo piano üçün “Riqa yağışda”, bariton və ansambl üçün “*Melancholia*”, Violonçel və orkestr üçün konsert əsərlərini yazmışdır. Bunların hər biri A.Qəmbərlinin illərlə nail olduğu professionalizmin hazırkı yaradıcılıq mərhələsindəki kulminasiyasıdır. Adları qeyd olunan əsərlər hələ ki, ifa olunmayıb. A.Qəmbərli kino musiqisinin də müəllifidir. “Döngələr” teleserialı (2012), “Arzular bağı” tamaşasının (2013) musiqisi məhz Qəmbərlinin qələminə aiddir.

A.Qəmbərlinin əsərlərinin təhlili, müxtəlif illərdə tətbiq etdiyi fərqli estetikanın araşdırılması, axtarışlarının istiqamətinin öyrənilməsi nəticədə onun bir

bəstəkar kimi müəyyən obrazını yaradır. Qəmbərlinin musiqisi sanki təbiətin “daxili əksetmə” qanununun təcəssümüdür. Gün işığında şeh damcılarının, büllurun, suda hava köpüklərinin parıltısı, göy qurşağı, ilğımlar məhz bu qanunun nəticəsidir. Ayazın əsərləri də təbiətin çoxsaylı rənglərini özündə əks etdirən qalın divarlı dərin büllur qaba bənzəyir. Müasir musiqinin mürəkkəb təmayülləri və musiqi bəstələmə texnikaları bəstəkarın sadə, statik kompozisiyalarında incəliklə Ayaz Qəmbərlinin üslubuna uyğun əridilərək onun şəffaf musiqisini sayrışan rənglərə boyayır.

Apardığımız təhlillərdən belə nəticəyə gəlmək olar ki, bəstəkarın yaradıcılığında təhtəlşüurunda ilişib qalmış obrazlar və uşaqlıqdan asketik mühitdə formalaşmış təfəkkür tərzi müasir akademik musiqinin mürəkkəb və dinamik qanunauyğunluqlarına həm hökmranlıq edir, həmdə tabe olur. A.Qəmbərli son 19 il ərzində bəstələdiyi hər bir növbəti əsərində qarşısına yeni hədəflər qoyur. Dünyanın ən nüfuzlu müsabiqələrində müasir musiqinin aparıcı bəstəkarlardan ibarət olan münsiflər heyətinin onun partituralarını qalib elan etməsi bizə bir daha sübut edir ki, o, qarşısına qoyduğu hədəfi yüksək professionallıqla həll edir. Qəmbərlinin yaradıcılığı nə qədər müxtəlifliklə dolu olsa da, onun dəsti-xəttini tanımamaq mümkün deyil. Çünki nə qədər fərqli üslub və texnikalara müraciət etsə belə, bəstəkarın tələbəlik illərində yazdığı əsərləri intuitiv, 2008-2014-cü illərdə yazılmış bir çox əsərləri impressionist, “Şaquli sapınma”, “Rezonans”, “Sentyabr buludları”, “Exolalia” kompozisiyalarını isə meditativ estetika ilə ümumiləşdirmək olar.

**ƏDƏBİYYAT**:


1. İdeyanın varlığı və onun reallaşması arasında. // “Bizim yol” qəzeti, 2 noyabr, 2011-ci il.
2. Nəsimi festivalının broşürü, Bakı, 2019, 48 s.
3. Ухтомский А. А. Доминанта. Статьи разных лет. 1887-1939. СПб.: Питер, 2002. 448 с.

**Saytoqrafiya:**

4. Ayaz Qəmbərli: “Mən Azərbaycan musiqisinin məhz indiki Abşeron dövrünü yazıram”, “Kultura.az” mədəniyyət və incəsənət portalı, 17.09.2014
URL: https://www.kultura.az/news/20140917075029289
5. Nicat Məmmədovun Ayaz Qəmbərli ilə müsahibəsi
URL: https://literaz.com/news/go/3/bestekar-ayaz-qemberli-ile-musahibe
6. Ayaz Qəmbərlinin həyat və yaradıcılığı
URL: https://az.wikipedia.org/wiki/Ayaz_Q%C9%99mb%C9%99rli
7. Ayaz Qəmbərlinin əsərlərinin səs yazıları
URL: https://soundcloud.com/ayaz-gambarli
8. Ayaz Qəmbərlinin ”Rezonans” əsərinin video yazısı, Bakı, 2015
URL: https://www.youtube.com/watch?v=HWXtkk6o7TE
9. Ayaz Qəmbərlinin ”Şaquli sapınma” əsərinin video yazısı, Bakı, 2016
URL: https://www.youtube.com/watch?v=uJR9bI9IsgM

10. Ayaz Qəmbərlinin Piano və orkestr üçün konsertinin video yazısı, Qəbələ, 2019
URL: https://www.youtube.com/watch?v=4hx52wuEKjE
11. Ayaz Qəmbərlinin ”Riqa yağışda” əsərinin video yazısı, Nyu-York, 2020
URL: https://www.youtube.com/watch?v=Yy05oxHvbKY
12. Ayaz Qəmbərlinin ”Hüzn” əsərinin video yazısı, Bakı, 2019
URL: https://www.youtube.com/watch?v=RuTNAeDHr3s
13. Ayaz Qəmbərlinin “Méthode de sens” əsərinin video yazısı, Boston, 2013
URL: https://www.youtube.com/watch?v=7OuMe5jK1RE
14. Ayaz Qəmbərlinin ”Nöqtələrə həll olunmuş kompozisiya” əsərinin video yazısı, Kiyev, 2013
URL: https://www.youtube.com/watch?v=MQuggNS6Nmc
15. Ayaz Qəmbərlinin “Köhnə qrammofondan vals” əsərinin video yazısı, Kiyev, 2009
URL: https://www.youtube.com/watch?v=PjZ6PyiFqyU
16. Ayaz Qəmbərlinin “Elementlərin müqaviməti” əsərinin video yazısı, Qraz, 2015
URL: https://www.youtube.com/watch?v=nSruQ1K77P0
17. Ayaz Qəmbərlinin ”Suprematik fiqurlar” əsərinin video yazısı, Bakı, 2020
URL: https://www.youtube.com/watch?v=OVQbV7_Kdaw
18. Ayaz Qəmbərlinin “Divertisment” əsərinin video yazısı, Qəbələ, 2015
URL: https://www.youtube.com/watch?v=nvCln5Ocxvc
19. Ayaz Qəmbərlinin “LudwigStuk” əsərinin video yazısı, Kiyev, 2008
URL: https://www.youtube.com/watch?v=1sA-ujmGZi8
20. Ayaz Qəmbərlinin ”Sentyabr buludları” əsərinin video yazısı, Berlin, 2015
URL: https://www.youtube.com/watch?v=FS6OvxXQNgQ
21. Ayaz Qəmbərlinin ”Exolalia” əsərinin video yazısı, Bakı, 2019
URL: https://www.youtube.com/watch?v=K1WE2JKLXOM

**Notoqrafiya:**

22. Gutiérrez Ignacio Brasa / Diverse / Ayaz Gambarli / Dimitris Maronidis: K2019 for piano”, Universal edition, 2019

**Сара ТИМУРОВА**
Заведующая отделом Международных
связей и работы с иностранными студентами,
старший преподаватель кафедры Истории и теории музыки
факультета Музыки АГУКИ

## ХУДОЖЕСТВЕННАЯ ИДЕНТИФИКАЦИЯ ТВОРЧЕСТВА КОМПОЗИТОРА АЯЗА ГАМБАРЛИ

***Резюме:*** *В данной статье представлена подробная информация о творчестве молодого Азербайджанского композитора, лауреата международных конкурсов Аяза Гамбарли. В начале статьи раскрываются общие художественные и стилистические особенности творчества А.Гамбарли. Также рассказывается о годах учебы, об участии на конкурсах и о текущей педагогической деятельности*

*композитора. Основная цель статьи – проследить творческий путь и устремления композитора, дать краткую характеристику его произведений в хронологическом порядке.*

***Ключевые слова:*** *современная музыка, композитор, Аяз Гамбарли, хронотоп, статичность, эстетика*

**Sara TIMUROVA**
Head of the Department of International
Relations and Foreign Students Affairs,
Senior Lecturer of the Department of History and Theory of Music,
Faculty of Music, ASUCA

## ARTISTIC IDENTIFICATION OF OEUVRE OF COMPOSER AYAZ GAMBARLI

***Summary:*** *This article provides detailed information about body of work by the young Azerbaijani composer, prize-winner of international competitions Ayaz Gambarli. At the beginning of the article, the general artistic and stylistic features of the composer's works are revealed. Years of education, participation in competitions and the current teaching activities of A. Gambarli are also covered in the article. The main purpose is to give a brief cvharacteristics of all the works of the composer in chronological order, to track the creative path and aspirations of the composer.*

***Keywords:*** *contemporary music, composer, Ayaz Gambarli, chronotopos, statics, aesthetics*

**Rəyçilər**: sənətşünaslıq üzrə elmlər doktoru, professor Fərəh Əliyeva
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaşzadə